Salam Tatev,

Elə məktubuma sənin cümlənlə başlamaq istərdim. Həqiqətən də bir şey çox aydındır ki, sülh üçün insanlardan daha çox mərdlik tələb olunur, nəinki müharibə üçün. Savaşmağı döyüşməyi nlərdənsə ötrü mübahisə etməyi hamı bacarar. Ancaq yaxşılıq etmək, sülh düşünmək, insanlıq göstərək hər insanın cəsarət edə biləcəyi iş deyil. Tarixdə kimlərinsə etdiyi səhvlərə görə bu gün iki millət bir birinə düşməndir. Ancaq əlbəttə ki, bu gün Dağlıq Qarabağın işğalında, ya da o müharibədə ölən minlərlə günahsız Azərbaycanlının qanında sənin günahın yoxdur. Axı kim istəyərdi ki, elə bir şey olsun? Xocalıda vəhşiliklə öldürülən neçə neçə günahsız körpələrin şəkillərini görsən, videoları izləsən göz yaşlarını saxlaya bilməzsən və o hadisənin günahkarlarının cəzalandırılmasını sən də istəyərdir. Bəli, bu gün sizdə olduğu kimi bizdə də böyük əksəriyyət erməni xalqını düşman kimi görür. Amma həqiqət odur ki, bir birinə düşmən olan insan yoxdur. Düşmən kimi yetişdirilən insanlar var. İnan ki, sənin yazdıın bütün sülh cümlələrinə mən də şərikəm. Mən də sülh olsun istəyirəm, mən də kimərinsə bu müharibədən əziyyət çəkməsinə qarşıyam, mən də barışıq istəyirəm. Mən də ölkələrimizin inkişafını sülh yolunda görürəm. Mən də istərdim ki nə vaxtsa İrəvana gəlsəm bir marketdə, ya da taksidə mənə düşmən kimi deyil, qonşu ölkənin dost vətəndaşı kimi baxsınlar. Elə sən də Bakıya gəlsən eyni münasibəti görəsən.

Nənənin də danışdığı kimi, Qarabağdakı insanların da danışdığı kimi biz istər Azərbaycanda, istər Ermənistanda mehriban yaşamışıq. Və ümid edirəm ki, bu yenidən belə olacaq.

Ən xoş Sülh arzularımla,

Kamran